## "Əməkdar müəllimlərimizi tanıyaq"

# Mənim ƏMƏKDAR müəllimim

Bu gün yeni tədris ilinin ilk günüdür. Uşaqdan böyüyə hər kəs məktəb yolundadır. Biri üçün ilk zəng çalınır, bir başqası üçün İLK zəng son dəfə çalınır. Təbii ki, hələ eşidəcəyi zənglər, keçəcəyi dərslər, verəcəyi imtahanlar olanlar daha çoxdur müəllimlər arasında. Yeni tədris ilinin ilk günündə məktəb yoluna düzələnlər arasında onlar da var – keçdiyi dərslər örnək, açdığı cığır yol, qazandığı təcrübə məktəb olanlar, Azərbaycanın Əməkdar müəllimləri...



**Sarayda bir müəllim var...**

2022-ci ildən Əməkdar müəllimdir, Saray qəsəbəsinin Tünzalə müəllimi. 53 yaşlı müəllim qəsəbədə sözə, kəlama dəyər aşılayan, vətənpərvər nəsil yetişdirən, ədəbiyyatına, mədəniyyətinə sahib çıxan yetirmələri ilə məşhurdur. Necə ki, özü torpağına, elinə, yurduna, qəsəbəsinə və məktəbinə sadiq yetişib...

Tünzalə Rəsul qızı Qurbanova Abşeron rayonunun Saray qəsəbəsində doğulub böyüyüb. Qəsəbədəki M.Ələkbərov adına 1 nömrəli tam orta məktəbin şagirdi olub, Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbəsi Filologiya fakültəsində təhsilini uğurla – fərqlənmə diplomu ilə bitirib. O gündən Abşeron rayonu Saray qəsəbə M.Ələkbərov adına 1 nömrəli tam orta məktəbinə qayıdaraq özü kimi qəsəbə uşaqlarına ana dilini, yurd sözünü, ata kəlamını anladıb. Bilirsiniz, 30 ildən artıq bir müddəti əhatə edən bu pedaqoji təcrübənin uğuru nəyə əsaslanır? "Fəaliyyət göstərdiyim illər ərzində çalışmışam ki, işimi səmərəli təşkil edərək dövrün tələblərinə cavab verən bir təhsilverən olum", – deyir özü. Bu təcrübənin qida qaynağı bəllidir: müəllim əməyi, müəllim çalışqanlığı, müəllim əzmi. Qarşımızda müəllimə yönəlik hər layihədə yer almağa çalışan bir müəllim görürük: "Elm və Təhsil Nazirliyinin keçirdiyi ixtisasartırma, kurikulum kurslarında, "Mədəd" Humanitar Təşkilat İctimai Birliyinin təşkil etdiyi təlimlərdə iştirak edib sertifikat almışam".

Tək özümü? Əlbəttə ki, yox. Daim öz üzərində işləyən bir müəllimin şagirdləri də mütləq fərqlənir: "Şagirdlərim müxtəlif vaxtlarda "Xocalı yarası sağalan deyil", "Ana dilimizi qoruyaq", "Şuşa İli" və başqa inşa müsabiqələrində iştirak edib, fərqlənib, fəxri fərmanlara layiq görülüblər. 2008-ci ildə Xəndan Qüvvətli 625 bal, 2010-cu ildə Tural Məlikli 650 bal toplayaraq ali məktəblərə qəbul olunublar. Sinif rəhbəri olduğum Ləman Paşalı 2016-cı ildə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsində ölkə üzrə 3-cü yerə layiq görülüb. 2022-ci ildə ölkə üzrə maksimum bal toplayan 10 abituriyentdən biri Elnur Mərdiyev (684 bal) də şagirdlərimdəndir".

"Məncə, müəllimin vəzifəsi təkcə savadlı şagird yetişdirmək deyil, həm də dövlətimiz üçün faydalı, hərtərəfli inkişaf etmiş, gələcəkdə müxtəlif sahələrdə çalışa bilən namuslu və qeyrətli vətəndaşlar yetişdirməkdir", – deyən Tünzalə müəllim hər zaman bu prinsipə sadiq qalıb. Elə bu xüsusiyyətinə görə də təqdir edilib, mükafatlandırılıb: "Fəaliyyətimə verilən yüksək dəyərə görə daima öz üzərimdə işləməyi, yeniliklərə açıq olmağı, daha səylə çalışmağı ən ümdə məqsədlərimdən sayıram".

Öz üzərində çox çalışdığındandır ki, müəllimlərin qiymətləndirmə imtahanlarından üzüağ çıxıb. Əvvəlcə diaqnostik qiymətləndirmədə, bu il isə sertifikatlaşdırma imtahanında 54 bal toplayaraq nüfuzuna nüfuz, əməkhaqqına əlavə qatıb.

Müəllimlikdə uğuru da, nüfuzu da özü qazanıb, söz yox. Amma ona müəllimliyi qazandıranı – anasını da unutmur. Dediyinə görə, anası ingilis dili müəllimi olmaq arzusunda olub, lakin ailə qurduqdan sonra bu xəyalını reallaşdıra bilməyib. 40 ildən artıq məktəbdə kargüzar işləyib, amma bu, onun ürəyində böyüyən müəllimlik sevdasını azaltmayıb ki, azaltmayıb. O da öz sevgisini uşaqlarına ötürüb: "Ailəmizdə məndən başqa 2 müəllim var. Böyük bacım rus dili, kiçik bacım isə riyaziyyat müəllimidir".

Bir sözlə, müəllimliyi ürəyində böyüdən bir ananın qızı, müəllimliyi əməli ilə ucaldan bir müəllimdir Tünzalə Qurbanova. Hələ çox sinfə girəcək, çox təqdir görəcək, çox mükafatlar alacaq, çox adlar qazanacaq. Bu adların ən başında da onun MÜƏLLİM adı duracaq!

Ruhiyyə Daşsalahlı